12 dekabr / 2020

Ədəbiyyat QƏZETİ

# Qəşəm ÇIRAQLI - 85



Hörmətli Qəşəm müəllim!

Sizi - tanınmış şairimizi 85 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz ədəbi yaradıcılığa ötən əsrin 60-cı illərindən başlamısınız. İlk mətbu şeiriniz "Xəzər kommunisti", "Azərbaycan gəncləri" qəzetlərində dərc edilmişdir. "Dünya həmin dünyadır", "Fikir burulğanı", "Yollar sabaha gedir", "Ömrümün işığı", "Mən hamıya inanıram", "Tarazlıqda yaşayırıq" və s. adda iyirmi şeir toplunuz və iki cilddə "Seçilmiş əsərlər"iniz çapdan çıxmışdır. Şeirlərinizin mövzu dairəsi, Vətən, ana torpaq, qəhrəmanlıq motivləri ilə bağlıdır.

1954-cü ildə Bakı 1 nömrəli Tibb Texnikumunu bitirib, Tərtər rayonunun Sarıcalı və Dəmirçilər kəndində tibb məntəqəsinin müdiri işləmisiniz. Sonra Bakıya gələrək Bakı Su Səhiyyə idarəsində və Gəmi Təmiri İdarəsinin Tibb məntəqəsində feldşer işləmisiniz. Sonra Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunu bitirmiş və uzun illər Meliorasiya və Su Təsərrüfatı Nazirliyində aparıcı mühəndis vəzifəsində işləmisiniz.

Hörmətli Qəşəm müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.